*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.202-205*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.202-205*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.202-205*

**UOT: 661.85:7:94(497.61)**
https://doi.org/10.30546/670832.2025.01.010

# Şəkidə qədim ipəkçilik ənənələrinin inkişafına dair (sənətşünaslıq aspekti)

**Müəllif(lər):**

**Aytən Yusifkənan**
Azərbaycan Dövlət İqtisad Universiteti
Müəllim
**E-poçt:** s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

**Açar sözlər:** Şəki, ipək, parça, fabrik, kəlağayı

**Annotasiya.** Mədəni irsimizin öyrənilməsi və təbliği, onun gələcək nəsillərə ötürülməsi milli mədəniyyətlərin qarşısında duran aktual məsələdir. Bu baxımdan məqalə Azərbaycanın dilbər güşəsi olan Şəkinin ipəkçilik ənənələrinin inkişafı tarixinin tədqiqinə həsr olunub. Tədqiqatın məqsədi Şəkidə ipək istehsalının əsrlər boyu əsas məşğuliyyət olmasını, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərməsini müəyyən etməkdir. Araşdırma zamanı sənətşünaslıq elminin metodoloji bazasına, daha dəqiq desək tarixilik, mədəni-tarixi və təhlil metodlarına istinad edilmişdir.

Tədqiqatdan alınan əsas qənaətə görə, Şəkinin "Böyük İpək Yolu" üzərində yerləşməsi xüsusən bu sahənin formalaşmasına və inkişafına töhfə vermiş, digər ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə təkan vermişdir. Arxeoloji əşyalar göstərir ki, hətta qədim Qafqaz Albaniyası dövründə də məbədlərin ərazilərində insanlar ipəkçiliklə məşğul olurdular. Yerli sənətkarlar əsrlər boyu nəsildən-nəslə ötürülən orijinal texnikanı qoruyub saxlayaraq ənənəvi ipək istehsalı üsullarından bu gün də məharətlə istifadə edirlər. Şəki ustalarının xam ipəkdən hazırladıqları zərif parçalar, gözəl paltarlar, rəngarəng kəlağayılar xarici ölkələrə ixrac edilir, şəhər öz ipəyi ilə bütün dünyada şöhrət qazanır. Şəki xüsusilə parlaq və zərif kəlağayı ilə məşhurdur. Ən geniş yayılmış kəlağayı nümunələrindən biri "heyratı kəlağayı" adlanan baş örtüyüdür ki, onlar çiçək naxışları ilə bəzədilmiş zərif açıq çalarlı ilə seçilirlər. Araşdırmadan alınan nəticələr Azərbaycan tətbiqi-dekorativ sənəti tarixi tədqiqatlar üçün mühüm elmi-nəzəri mənbə olmaqla yanaşı, tədris prosesində tətbiq edilə bilər.

## Development of ancient silk weed traditions in Sheki

**Author(s):**

**Ayten Yusifkanan**
Azerbaijan State University of Economics
Teacher
**E-mail:** s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

**Key words:** Sheki, silk, fabric, factory, kelagay

**Abstract.** The study and popularization of our cultural heritage, as well as its transmission to future generations, are pressing issues facing national cultures. From this point of view, the article devoted to the study of the history of the development of sericulture traditions in Sheki, a charming corner of Azerbaijan, can be considered relevant. The purpose of the study is to establish that silk production has been the main occupation in Sheki for centuries and has had a significant impact on the development of trade and crafts. In the course of the study, reference was made to the methodological basis of art history, namely historicism, cultural-historical, art history and analytical methods.

It is shown that silk production has been the main occupation in Sheki for centuries and had an important impact on the development of trade and crafts. Sheki's location on the "Great Silk Road" contributed to the formation and development of this area, gave impetus to the expansion of economic ties with other countries. Archaeological finds show that even in the times of ancient Caucasian Albania, people were engaged in sericulture in temple areas. Today, local artisans skillfully use traditional silk production methods, preserving the original techniques passed down from generation to generation. Delicate fabrics, beautiful clothes and colorful shawls made by Sheki craftsmen from raw silk are exported to foreign countries, and the city is famous throughout the world for its silk. Sheki is especially famous for its bright and elegant kelaghay. One of the most common examples of kelagay is the so-called "gerati kelagay" headdress, distinguished by a delicate light shade and an amazing floral pattern. The results of the study are an important scientific and theoretical source for research of Azerbaijani decorative and applied arts and can also be used in the educational process.

## Развитие древних традиций шелководства в Шеки

**Автор(ы):**

**Айтен Юсифканан**
Азербайджанский государственный экономический университет
Преподаватель
**Э-почта:** s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

**Ключевые слова:** Шеки, шелк, ткань, фабрика, келагай

**Аннотация.** Изучение и популяризация нашего культурного наследия, а также его передача будущим поколениям являются насущной проблемой, стоящей перед национальными культурами. С этой точки зрения статью, посвященную изучению истории развития традиций шелководства в Шеки — очаровательного уголка Азербайджана, можно считать актуальной. Целью исследования является установление того, что производство шелка на протяжении веков было основным занятием в Шеки и оказывало значительное влияние на развитие торговли и ремесла. В ходе исследования была сделана ссылка на методологическую основу искусствознания, а именно на историзм, культурно-исторический, искусствоведческий и аналитический методы.

Согласно основному выводу, сделанному в результате исследования, расположение Шеки на «Великом Шелковом пути» способствовало становлению и развитию именно этой территории, а также дало толчок расширению экономических связей с другими странами. Показано, что производство шелка на протяжении веков было основным занятием в Шеки и оказывало важное влияние на развитие торговли и ремесел. Расположение Шеки на «Великом шелковом пути» способствовало становлению и развитию этого направления, дало толчок расширению экономических связей с другими странами. Археологические находки показывают, что еще во времена древней Кавказской Албании люди занимались шелководством на храмовых территориях.Местные ремесленники и сегодня умело используют традиционные методы производства шелка, сохраняя оригинальные приемы, передаваемые из поколения в поколение. Нежные ткани, красивая одежда и красочные шали, изготовленные шекинскими мастерами из шелка-сырца, экспортируются в зарубежные страны, а своим шелком город известен во всем мире. Шеки особенно славится своим ярким и нарядным келагай. Одним из наиболее распространенных образцов келагай является так называемый головной убор «герати келагай», отличающийся нежным светлым оттенком, изумительным цветочным узором. Результаты исследования являются важным научно-теоретическим источником для исследований азербайджанского декоративно-прикладного искусства и могут быть использованы и в учебном процессе.

**Giriş.** Uzun illər boyu Azərbaycan şəhər sənətkarlığı, onların bədii mədəniyyətdə rolu və əhəmiyyəti az tədqiq olunan sahələrdən olaraq qalırdı. Azərbaycanda ipəkçilik sahəsi 1500 illik tarixə və zəngin ənənələrə malikdir. İpəkçiliyin inkişafı əsasən Şimal-Qərb bölgəsi, xüsusən qədim tarixə və zəngin ənənələrə malik Şəki ilə bağlıdır. Burada əsrlər boyu yerli əhalinin həyatında mühüm rol oynayan ipəkçilik ənənələri qorunub saxlanılmış və inkişaf etdirilmişdir [3]. Şəkidə qədim ipəkçilik ənənələrinin öyrənilməsi maddi-mənəvi mədəniyyətimizin, milli incəsənət tariximizin öyrənilməmiş səhifələrini üzə çıxarmaq, onları ətraflı təhlil edib sənətşünaslıq elminə töhfə vermək əsas qayəmizdir. Məqsədimiz Şəkidə ipək istehsalının əsrlər boyu əsas məşğuliyyət sahəsi olmasını, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərməsini sənətşünaslıq aspektindən elmi dəlillərlə sübuta yetirməkdir.

**Materiallar və metodlar.**

Azərbaycan dekorativ-tətbiqi sənətində Şəki ipəkçiliyi sənətşünaslıq prizmasından az öyrənilmiş sahələrdən olaraq qalmaqdadır. Həmin boşluğu aradan qaldırmaq məqsədilə ölkə elmimizdə Şəki şəhərinin mədəniyyət tarixinə, habelə Azərbaycan ipəkçiliyinin sənaye sahəsi kimi inkişaf tarixinə həsr olunmuş A.Tahirovanın [7], A.Məmmədovun [2], N.Bədəlovun [1], V.Çıraqzadənin [8] monoqrafiya və elmi məqalələri tədqiqata cəlb edilmişdir. Həmin əsərlərdə Azərbaycan ipəkçiliyi tarixi mərhələlər üzrə tədqiq edilmişdir. Bundan başqa Azərbaycan mədəniyyəti və tarixinə həsr edilmiş elektron informasiya resursları [3; 6] tədqiqatlarımıza yardımçı ola bilmişdir.

Tədqiqatda sənətşünaslıq elminin metodoloji bazasına, daha dəqiq desək tarixilik, mədəni-tarixi və təhlil metodlarına istinad edilmişdir. Həmin metodlar vasitəsilə Şəki ipəkçilik sənayesinin incəsənətin dekorativ-tətbiqi sənət sahəsi kimi yüksək bədii məzmun və məndəricata məxsus olmasını əsaslandırmağa nail ola bilmişik.

**Nəticə və müzakirə.**

Şəkidə ipəkçiliyin inkişafı və sənayedə geniş tətbiqi bu rayonda aparılan arxeoloji tədqiqatlarla sübuta yetirilmişdir. Bu şəhər ipəkçiliyin qədim ənənələrini qoruyub saxlamışdır. Əsrlər boyu ipəkçilik şəkillərin həyatında özünəməxsus yer tutmuşdur. İpəkçiliyin Şəkidə qədim və mühüm iqtisadi sahə olduğunu bu ərazidə aparılan arxeoloji tədqiqatlar da sübut edir.

Azərbaycanın tarixi "Böyük İpək Yolu" üzərində yerləşməsi respublikada, xüsusən Şəkidə bu sahənin formalaşmasına və inkişafına töhfə vermiş, digər ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə təkan vermişdir. Arxeoloji əşyalar göstərir ki, hətta qədim Qafqaz Albaniyası dövründə də məbədlərin ərazilərində insanlar ipəkçiliklə məşğul olurdular.

Orta əsrlərdə Şəki ən böyük ipəkçilik və baramaçılıq mərkəzi hesab olunurdu. Şəkidə ipək istehsalı əsrlər boyu əsas məşğuliyyət olmuşdur, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərmişdir. Yeni karvansarayların salınmış, şəhər həyatı canlanmışdır. XV əsrdən bu Azərbaycan şəhəri əla ipək istehsalı yeri kimi tanınır. Şəki bütün Qafqazda ipəkçiliyin mərkəzinə çevrildi.

Ərəb basqınları ilə əlaqədar daxili və beynəlxalq ticarət yollarının dəyişməsi ipəkçiliyin tənəzzülünə səbəb olsa da, bu ərazi mövcud olmaqda davam etmiş və bu bölgənin sakinləri XX əsrin sonundan XXI əsrin əvvəllərinə qədər bu şöhrətini qoruyub saxlaya bilmişlər.

1475-ci ildə Azərbaycanda səfərdə olan Venesiya səfiri Ambrocio Contarini Venesiyada Şəki ipəyini "Talaman ipəyi" kimi təqdim etmişdir [4, s.75].

XVIII-XIX əsrlərdə Şəkidə ipəkçilik özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Bu illərdə Azərbaycanda ildə 9-10 min ton yaş ipəkqurdu istehsal olunurdu. İpək məmulatları əsasən Rusiyaya, oradan isə Avropa ölkələrinə ixrac edilirdi. Şəkidə istehsal olunan ipək məmulatları öz keyfiyyəti ilə seçilir, xarici bazarlarda yüksək qiymət alırdı.

Əvvəllər Şəkidə ipəkçilik sahibkarlar tərəfindən öz fabrik və emalatxanalarında aparılırdı. 1829-cu ildə Şəkidə bütün Cənubi Qafqazda ilk kapitalist müəssisəsi olan Xanabad ipəktoxuma manufakturası açıldı. 1830-cu ildən başlayaraq burada ipək parça istehsalı təşkil edilmişdir. Xanabad manufakturu həcmcə kiçik olsa da, yaxşı keyfiyyəti ilə seçilirdi. 1836-cı ildə manufaktura xəzinədən "Zaqafqaziyada İpəkçilik Təbliği Cəmiyyəti və İpək sənayesi"nə verildi. XIX əsrin birinci yarısında Şəki vilayəti 15 min puddan 20 min puda qədər istehsal ipəklər etdi.

XIX əsrin ikinci yarısında Şəki ipəkçilik sənayesinin mərkəzi olaraq qalmaqda davam edirdi. 1843-cü il iyulun 1-də Şəkidə "İpəkçilik praktiki məktəbi" adlanan məktəb açıldı ki,

bu da təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ipəkçiliyin inkişafında müsbət rol oynadı. Mövcud olduğu 20 il ərzində məktəb ipəkçilik işinə qoşulmuş 236 şagird hazırlamışdır. Bu işdə "İpəkçilik və Ticarət Sənayesini Qafqazdan Kənara Yayma Cəmiyyəti"nin də böyük rolu olmuşdur.

1861-ci ildə Andrey və Vasili Voronin qardaşları Şəki ipəyini dünya səviyyəsinə çıxararaq dünyanın ən böyük manufakturalarından birini tikdilər. Azərbaycan ipəyi Avropaya getdikcə daha çox ixrac olunurdu və ümumiyyətlə, Şəki yaxınlığında nadir olmayan köhnə zavod boruları, çox güman ki, ipək fabriklərindən qalmışdır. XIX əsrdə Şəki ipəyi təkcə Azərbaycanda deyil, Şərq, Avropa və Rusiya ölkələrində tanınıb və yüksək qiymətləndirilib. II Nikolayın dövründə Rusiya imperiyasının əskinaslarına beş yüz rubulluq əskinasların qırışmasının və tez köhnəlməsinin qarşısını almaq üçün Şəki ipəyi əlavə edilirdi. 1862-ci ildə Londonda keçirilən beynəlxalq Ümumdünya Sənaye Sərgisində Şəki ipəyi bürünc medalla təltif edilmişdir. Fransanın Lion şəhərinin "Sent-Etyen" şirkəti Şəki ipəyinin daimi alıcılarından olub [4, s.76]. Təəccüblü deyil ki, XIX əsrin əvvəllərində ipəkçilik sahəsində əldə etdiyi uğurlara görə Şəki Fransanın ipək paytaxtı ilə müqayisə edilərək Qafqaz Lionu adlandırılıb.

Bu illər ərzində Azərbaycanda olmuş səyahətçilər və diplomatlar, məsələn, Adam Olearius, Entoni Cenkinson, Övliya Çələbi, Aleksandr Düma, Fedot Kotov səyahət qeydlərində kəlağayı haqqında danışıblar. O da məlumdur ki, 1870-ci ildə Şəki ipəyindən hazırlanmış Basqal kəlağayısı Londonda keçirilən sərgidə gümüş medal qazanıb.

Sonralar bu qiymətli məhsul olan Şəki ipəyinin şöhrəti həm ölkə daxilində, həm də xaricdə yayıldı və bu məhsullara tələbat artmağa başladı. Şəki təkcə Azərbaycanın deyil, bütövlükdə regionun ipəkçilik mərkəzlərindən biri olub və bu, hətta Şəkinin gerbində də öz əksini tapıb.

Şəki ipəyi dünya bazarlarında həmişə populyarlığını qoruyub saxlayıb, bu bölgənin barama və ipək sapları yüksək qiymətləndirilib. Şəkidə ipəkçilik inkişaf etdikcə onun texnologiyasını və istehsalını mənimsəmiş xüsusi ixtisaslaşdırılmış sinif formalaşmışdır.

Ötən əsrin 60-70-ci illərində Azərbaycanda ipəkçilik yenidən inkişaf etməyə başladı. Bu illərdə Şəki İpək Kombinatı Sovet respublikaları arasında Azərbaycan ipək istehsalına görə Özbəkistandan sonra ikinci yeri tuturdu. İldə 7800 ton yaş ipəkqurdu istehsal edilmişdir. 1970-80-ci illərdə ölkəmizdə, xüsusən Şəkidə ipəkçiliyin inkişafı geniş vüsət almışdır. Bu illərdə respublikada hər il 5-6 min ton yaş ipəkqurdu, 350-400 ton xam ipək istehsal olunurdu, sonrakı mərhələlərdə isə on milyonlarla kvadratmetr ipək parça istehsal olunurdu [2, s.48].

Şəkidə ipəkçilik sadəcə parça istehsalı prosesi deyil, ən yüksək məharət, böyük səbr və fədakarlıq tələb edən əsl sənətdir. Yerli sənətkarlar əsrlər boyu nəsildən-nəslə ötürülən orijinal texnikanı qoruyub saxlayaraq ənənəvi ipək istehsalı üsullarından məharətlə istifadə edirlər. Şəki ustalarının xam ipəkdən hazırladıqları zərif parçalar, gözəl paltarlar, rəngarəng kəlağayılar xarici ölkələrə ixrac edilir, şəhər öz ipəyi ilə bütün dünyada şöhrət qazanırdı. İpək əşyalar sahibinin ədəb-ərkanının və zövqünün əlamətidir. Fabrikin bu günə kimi qorunub saxlanılan ipək parça nümunələri sübut edir ki, burada ipək parçaların müxtəlif növləri istehsal olunurdu. Çeşidlər arasında xüsusi yeri krepdeşin ipək parçası tuturdu ki, o da adi ipəkdən dənəliliyinə görə fərqlənir. Sonuncu materiala xoş bir kobud səth və orta parlaqlıq verir. Parça nazik və ya daha sıx ola bilər. Birinci çeşid şifonla bir çox oxşarlığa malikdir, lakin daha az şəffafdır. Bu material geyim sənayesində çox populyardır. Paltar və bluz tikərkən nazik krepdeşinə üstünlük verilir. Çox yüngül, yumşaqdır və bədəndə praktiki olaraq hiss olunmur. Kostyum və pərdələr tikərkən daha sıx materialdan istifadə olunur. Bunda başqa fabrikdə krep-şifon (qeyri-şəffaf, yüngül, ikitərəfli material. Onun dənəli teksturası ona kobud hiss bəxş edir. Material şifondan şəffaf olmaması ilə fərqlənir. Krepdən daha incə və yüngüldür), sarja (əsasən düz boyalı və çaplı şəkildə istehsal olunan diaqonal toxunuşlu) kimi ipək parçalar istehsal olunurdu. Günümüzə qədər gəlib çatan ipək parça nümunələri təsnif edərkən məlum olur ki, fabrikdə istehsal olunan nümunələr rənginə və bədii tərtibatının kompoziya quruluşuna, naxışlara görə fərqlənirdi. Belə ki, burada müxtəlif adlarla tanınan (məs., "Səbuhi" – art. 62209, "Nəsimi" – art. 52212  və d.) çox zaman eyni həndəsi (damalı, zolaqlı, nöqtəli), nəbati naxışlı və ya abstrakt kompozisiyaların müxtəlif rəng çalarları ilə fərqlənirdi [1, s.26].

Şəkidə toxuculuq sənəti milli qadın geyiminin mühüm atributu olan kəlağayı istehsalı ilə qırılmaz şəkildə bağlıdır. Şəkidə xüsusilə məşhur olan incə kəlağayı – ənənəvi qadın baş yaylıqlarıdır. Əvvəllər onları yalnız kişilər edirdi. Kəlağayın orijinallığını yoxlamağın xüsusi üsulu var: kəlağayı ölçüsündən asılı olmayaraq, üzükdən keçirsə, deməli, o, orijinal Şəki ipəyindən hazırlanıb.

Şəki ipəyindən hazırlanmış geyimlər, tikmələr və baş örtükləri də yüksək qiymətləndirilib. Məhz buna görə də kəlağayı tikən ustalar özləri Basqalda işləsələr də, Şəki ipəyini almağa üstünlük verirdilər. Belə ki, iki bölgə arasında müəyyən məsafənin olmasına baxmayaraq, onları "ipək sapları" möhkəm birləşdirirdi.

Şəki xüsusilə parlaq və zərif kəlağayı ilə məşhurdur. Bir neçə mərhələdən ibarət olan onun yaradılması prosesi xüsusilə maraqlıdır. Şəkidə kəlağayı ilə bağlı bütöv bir adət kompleksi çoxdan formalaşıb. Qədim dövrlərdə kəlağayı şərəf və ləyaqət simvolu idi. Qadınlar onları ilin istənilən vaxtında geyinirdilər. Bu qadın baş örpəyi öz möhtəşəm rəngarəngliyi ilə insanı doğumdan ölənə kimi müşayiət edirdi. Xoş xəbər üçün muştuluq şəklində parlaq kəlağayı vermək, gəlinə xonçada təqdim etmək, toyda yeni evlənənlərin qohumlarına paylamaq, evlənənlərə vermək adət idi. İşin sonunda evi tikən usta, burada bir nəfərin əsgərlikdən qayıtdığı və ya evləndiyi xəbəri olaraq darvazasına bağladı. Qara kəlağayı qadınların yas geyiminin vazkeçilməz atributu idi. Məhz eyni ipək yaylıq – amma qırmızı – toy mərasimində gəlinin başını örtdü. Yaşlı qadınlar və dul qadınlar tünd rənglərə və ya al-əlvan, çoxrəngli kəlağayılara üstünlük verir, onları adətən çalma bağlayırdılar. Evli olmayan və gənc evdar qadınlar ağ və ya parlaq kəlağayı geyinir, onları sadəcə baş örtüyü kimi bağlayırdılar [6].

Kəlağayı üzərində naxışlar armud, qoz və yabanı alma ağacından hazırlanmış qalib möhürlərlə işlənmişdir. Dəblər daim dəyişsə də, kəlağayı motivləri əsrlər boyu dəyişməz qalmışdır. Onlar bitkilərdən və həndəsi formalardan ilhamlanır, buta xüsusilə məşhur bir naxışdır. Şəkidə ən geniş yayılmış kəlağayı nüminələrindən biri "heyratı kəlağayı" adlanan baş örtüyüdür ki, onlar çiçək naxışları ilə bəzədilmiş zərif açıq çalarlı ilə seçilirlər.

**Yekun nəticə.** Təmiz ipəkdən hazırlanmış bu unikal məhsul haqlı olaraq sevgi və gözəllik, sülh və əmin-amanlıq rəmzi hesab olunur. Parlaq ornamentlərlə bəzədilmiş bu baş geyimi xalq məişətinin bir sıra xüsusiyyətlərini, qədim dəyərlərimizi, eləcə də Azərbaycan qadınının mətanətini özündə əks etdirir. Təsadüfi deyildir ki, 2014-cü ildə isə UNESCO kəlağayı dünya qeyri-maddi mədəni irs siyahısına daxil edib. XX əsrin 70-80-ci illərdə Şəkidə istehsal olunan Azərbaycan ipək kəlağayıları Avropa dəbçiləri arasında böyük şöhrət qazanıb.

**Ədəbiyyat**

1. Bədəlov, N. Azərbaycanda ipəkçilik / N. Bədəlov. – Bakı: Azərnəşr, – 1982. – 96 s.
2. Məmmədov, A.Ə. Azərbaycan ipəyinin şöhrəti // "İpək yolu", Azərbaycan Universitetinin nəşriyyatı, – 1997, №1-2, – s.47-52.
3. Келагаи – оживляя древние традиции: [Электронный ресурс] / URL: https://azertag.az/ru/xeber/kelagai___ozhivlyaya_drevnie_tradicii-1262141
4. Мамедов, А.А. К истории азербайджанского шелка / А.А.Мамедов. См.: «Великий шелковый путь» // Сборник статей. Материалы Международной конференции, посвященной развитию транспортного коридора Европа-Кавказ-Азия – Баку: Изд-во Азербайджанского Университета – 1998, – сс. 73-82.
5. Саламзаде, А.Р. Шеки. Историко-Архитектурный очерк / А.Р.Саламзаде, М.А. Исмаилов, К.М.Мамедзаде. – Баку: Элм, – 1988.– 238 с.
6. Таирова, А. Из истории производства шелка в Шеки в XIX веке [Электронный ресурс] / URL: https://azerhistory.com/?p=60545
7. Таирова, А.Э. История города Шеки (1920-июнь 1941 г.) / А.Э.Таирова – Баку: Elm və təhsil, – 2014.– 208 с.
8. Чырагзаде, В.А. Шелководство в Азербайджане / В.А.Чырагзаде. – Баку: Знание, – 1982.– 44 с.

*Məqalə Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2025, son daxilolma – 14.02.2025, qəbulolunma – 05.03.2025